

*Vaqif Aslan*
*AYB Şəki bölməsinin sədri*

# Torpağa, səmaya və qadına deyilən şeirlər

## (Şair Mayis Səlimin (1962-2019) "Həyat yolum" (şeirlər və hekayələr) kitabı haqqında)

(əvvəli ötən sayımızda)

**Mayis Səlim "Tula kimi yal", "Bürünməyə şal", "Ayağına nal", "Yalamağa bal", "Gizlənməyə dal", "Gəmirməyə kal" gəzənlərlə (Bax.Mayis Səlim. "Həyat yolum"(şeirlər və hekayələr). Səh.324) barışmır ki, barışmır. Neyləməli? Şair qəlbi həmişə şairin özündən güclü çıxır, axı!**

"Torba", "Yetim", "Mən çəmən çiçəyi deyiləm, axı", "Oğlan" kimi şeirlərində ictimai-sosial həyatın paradoksallığına üsyan edən Mayis Səlim üzünü dağlara çevirib, onların necə bir qürurla dayandığına baxır. Əslində isə, dərdini dağlara söyləyir:

*Biri qəlbimə dəysə,*
*Mən dağlara baxıram.*
*Kədər qəddimi əysə,*
*Mən dağlara baxıram.*

Ömrü min-min insanın ömründən də çox olan dağların bu haqq və nahaqq dünyasında baş verən işləklərə necə davam gətirdiyini öyrənmək istəyən Mayis Səlim yağışlarla ovulduqca, küləklərlə sovulduqca daşlaşan, torpaqlaşan, qayalaşan dağlara "qibləgahı" kimi baxır, sanki insanların taleyi ilə dağların taleyi arasında nəsə bir oxşarlıq görür:

*Dünənim, sabahımdır.*
*Ümidim, pənahımdır.*
*Mənim qibləgahımdır.*
*Mən dağlara baxıram...*

"Qurumuş ağacı kəsirdi qoca" şeirində də qurumuş ağacla qocalmış insan taleyindəki oxşarlıq Mayis Səlimi düşündürür. Amma burada təbiətin və təbiiliyin özünə etiraz və üsyan motivləri daha qabarıqdır. Insanın insan, ağacın da ağac sonluğu vardır. İnsan da tükənir, ağac da. Damar-damar qurumuş, yarpaq-yarpaq tökülmüş, budaq- budaq qopub düşmüş, kökünəcən suyu çəkilmiş və öz təbii ölümünü yaşamaqda olan o ağac daha ağaclığından çıxıbdır.

Ondan şalban kimi də, hətta, bir çəpərə vurulacaq paya kimi də istifadə etmək mümkün deyildir. Mayis Səlimin şeirindəki əlibaltalı o Qoca bəs nədən o qurumuş ağacı "qəzəblə", "hikkəylə" kəsir? Ona görə ki, damarları çıxmış əlləri, yerişini itirmiş ayaqları, nuru öləzimiş gözləri, bir sözlə, bitib tükənməkdə olan özü ilə qurumuş ağac arasında oxşarlıq görən o Qoca öz təsəvvüründə o ağacı deyil, "qaralmış bəxtindən və taleyindən qisas alırmış kimi" öz - özünü kəsir. Ona görə ki, o ağac artıq heç kimə və heç nəyə gərək deyildir:

*Bir də puçurlayıb açammaz daha.*
*Üstünə arılar uçammaz daha.*
*Ölümün əlindən qaçammaz daha...*
*Qurumuş ağacı kəsirdi Qoca.*

***

Mayis Səlimin sevgi şeirləri lirik - fəlsəfi ovqatdadır. Onun sevgi şeirlərində kədər və təəssüf notları tale və qismət notları kimi təzahür edir:

*Sən məni sevirdin, mən səni... Fəqət*
*Nə sən mənim oldun, nə də mən sənin.*
*Belə olmalıymış sonu, bəlkə də,*
*Nə deyək işinə bu məhəbbətin?*

Və ya:

*Bir qəbrin önündə ayaq saxladım.*
*Baxdım başdaşına hey dönə-dönə.*
*Bu görüş, gör, məni harda haqladı...*
*Nə deyim, a dünya, nə deyim sənə?...*

Və yaxud:

*Mən hardan biləydim nə vaxtsa sənin*
*Belə üzüdönük olacağını?*
*Könlümdə açılıb bir çiçək kimi,*
*Sonra da qəfildən solacağını?*

Mayis Səlimin sevgi şeirlərindəki çırpınan hərarətli ürək, şəkicəsinə deyiliş tərzinə xas olan yumor, lakonizm oxucunun özünə çəkməkdədir:

*Mən səni ürəyimə,*
*Sən məni dara çəkdin.*
*Bağlayıb gözlərimi*
*Bilmirəm hara çəkdin...*

Bir ürəkdə ki, şöləsi gözü, ifadəsi sözü işıqlandıran sevgi ola, onda "gül açan pəncərə" insanın üzünə açılan bəxt qapısı kimi görünər:

*Baxışırıq bayaqdan...*
*Pəncərəniz göz eylər.*
*Qorxuram çox dayansam,*
*Qonşuların söz eylər.*

*Ay insafsız, bir dayan1*
*Pəncərəni bağlama!*
*Dilinlə get söyləyib,*
*Gözlərinlə saxlama!*

Sevənlər həmişə kövrək, qayğılı, saygılı və səxavətli olurlar. Onlar sevdiklərini ilahiləşdirir, dünyanın ən şirin nemətlərini sevgililərinə bəxş etmək istəyirlər. Kainatı da öz aralarında bölüb, bütün yaxşıları sevgilisinə vermək istəyən şairlər necə də qəribədir. Elə bu qəribəlik bizi onların səmimiyyətinə inandırır. Vaxtı ilə "Gəl, bölək dünyanı ikilikdə biz" deyə sevgilisinə üz tutan Nəbi Xəzrinin (1924-2007) o qeyri-adi bölgüsü oxucularının ürəyincə olmuşdu. Nəbi Xəzri yazırdı:

*İlin övladıyıq yazla qış kimi...*
*Fəsillər yaşasın yanaşı məndə.*
*Biz ki bir yerdəyik gözlə qaş kimi...*
*Gözlər səndə qalsın, gözyaşı səndə.*

Mayis Səlim isə "Mənə qalsın" şeirində sevgidə Nəbi Xəzri bölgüsünü özünəməxsus şəkildə davam etdirir:

*Dağlarda Güneş də, çən də var, gülüm...*
*Günəş səninkidir, çən mənə qalsın!*
*Həyatda sevinc də, qəm də var, gülüm...*
*Təki sən sevin, gül, qəm mənə qalsın.*

*Qovar bir-birini aylar, fəsillər.*
*Gah qarlı qış olar, gah bahar gülər.*
*Sən elə gözəl qal, ötsə də illər.*
*Saçlara ələnən dən mənə qalsın.*

Sevdiyini "könlünün ən xoş diləyi", "ömrünün gülü-çiçəyi" kimi sevdiyindən "bütün aləmi" sevən Mayis Səlim (Bax.Mayis Səlim. "Həyat yolum"(şeirlər və hekayələr). Səh.293) dünyanı da sevgilisi ilə bölmək istəyir və bu sevgi məlum bölgü ilə qurtarmır,şeirlərə çevrilmiş oxşamalarla davam edir:

*Yenə körpə uşaq kimi kövrəlib,*
*Məndən küsüb, a gözləri dolanım.*
*Hansı sözüm səni belə yandırıb*
*Çiçək kimi saralanım, solanım?*

*Gedək, birgə buz bulaqdan içək biz.*
*O çəməndən, o gülşəndən keçək biz.*
*Güllərin ən gözəlini seçək biz,*
*Ay özü də tər bənövşə olanım.*
*Məni belə çox incitmə, a zalım.*
*Üz çevirib çıxıb getmə, a zalım.*
*Bəsdi daha, inad etmə, a zalım....*
*Pərvanətək, qoy, başına dolanım.*

Aşiqanə oxşamalar Mayis Səlimin xoyratlarında-"Sevgi bayatıları"nda da özünü göstərməkdədir:

*Gül görüm.*
*Gözlərindən gül, görüm.*
*Pəh, nə gözəl gülürsən...*
*Gül, üzündə gül görüm.*
*Və ya:*
*Üz gözəl...*
*Qoy sinəmə üz, gözəl.*
*Ya yetir diləyimi,*
*Ya dilimi üz, gözəl.*

"Yuxu" şeirində gördüyü baharın, bahardakı gözəlliklərin , "yanaqları lalədən al çiçəyinin" sehrinə düşən şair "Nə gözəl olurmuş..." şeirində əyani yaşantılarının poetikasını yaşamaq xşbəxtliyindən söz açır:

*Mən səni görəndə yaz çağı idi...*
*Dünyadan məhəbbət ətri gəlirdi.*
*Hər gülün, çiçəyin naz çağı idi...*
*Çəmənlər bəzənib üzə gülürdü...*
*Nə gözəl olurmuş sevmək, ilahi!*



***

"Dədəm Qorqudun kitabı" silsiləsinə daxil olan şeirləri baxımından da Mayis Səlim tarixiliklə müasirliyi bir müstəviyə gətirərək orijinal düşüncə tərzindən çıxış edir. Bu mənada Banu Çiçəyin dilindən deyilən şeir əxlaqi və mənəvi çalarları ilə diqqətə layiqdir. "Yağıdan öc almayan", "yarağı", "papağı", torpağı" əlindən çıxan, "anası-bacısı əsir gedən" bir oğlanı Banu Çiçək təbiətli türk qızı sevə bilməz, axı! Bu, bir həqiqətdir ki, qarı düşməni deyil, öz xalqını çapıb talayan, öz süfrəsini tapdalayıb özgə süfrəsində boşqab dibi yalayan, ata ocağından köz oğurlayıb yağı ocağı qalayan, söz soruşanda doğmalarını cincar- gicitkən kimi dalayan dırnaqarası igidlər çoxluğunda dırnaqarası Banu Çiçəklər çoxluğu olur. Əsil Banu Çiçək isə ona elçi düşən oğlandan (hələ bu oğlanın igid olmağı məlum deyil) villa, xarci maşın istəmir, onun qarşısına aşağıdakı tələbləri qoyur:

*Səndən zəfər istəyirəm.*
*Hünər, təpər istəyirəm.*
*Ər oğlu ər istəyirəm*
*Səni necə sevim, igid!*

Mayis Səlimin bu silsilədən olan "Qorqud Dədə", "Qazan xanın ağacla soraqlaşması", "Alp Aruza", "Bamsı Beyrəyə" adlı şeirləri oxucusunu düşünməyə və özünüdərkə çağırır. O, "Qaraca Çoban" şeirində yağı əlində əsir-yesir qalan yurduna müraciətlə deyir:

*Çatmır qulaqlara ahın, fəryadın...*
*Özgələr əlində qalıb el-oban.*
*Bəyindən, xanından yarıyammadın...*
*Sənə çoban gərək-Qaraca Çoban.*

Mayis Səlim "Yaddan çıxmasın Qarabağ" bölməsinə daxil edilən şeirləri ilə gələcək nəsillərə sanki tövsiyyələr verir. Orada sərgilənən şeirlər şairin "Dədəm Qorqudun kitabı" silsiləsinə daxil olan şeirlərinə xas olan poetik ruhu daha da gücləndirir. Qarabağın azad olacağı günü görməyə bütün varlığı ilə can atan şair "Məni qəbrə qoymayın" şeirində yazır:

*Qarabaxt Xocalının*
*qisası alınmasa,*
*Şuşanın dağlarında*
*"Koroğlu" çalınmasa,*
*Məni qəbrə qoymayın.*

"Birləşək", "Düyün", "Döz, ürəyim", "Yandırır məni", "Şənbə gecəsində", "Bir ovuc torpaq", "Azərbaycan əsgərinə" və bu qəbildən olan digər şeirlərində isə işğala məruz qalan Qarabağın taleyindən nigarançılıqla söz açılır.

***

Mayis Səlimin nəsr yaradıcılığı da diqqətə şayandır. Onun yaradıcılığında nəsr üstünlük təşkil etməsə də, kitabına daxil edilən hekayələri yazıçı Mayis Səlim haqqında danışmağa əsas verir.

O, Qarabağ mövzusunda qələmə aldığı "Axırıncı axşam" (Bax.Mayis Səlim. "Həyat yolum"(şeirlər və hekayələr). Səh.329-336) hekayəsində müharibənin gedişindən, qəhrəman əsgərlərimizin cəbhədə göstərdikləri fədakarlıqlarından deyil, müharibənin insanlara vurduğu mənəvi-fiziki zərbələrdən söz açır. Hekayənin aparıcı obrazı - elmi işçi Mehman Qarabağ müharibəsinin iştirakçısı olmuşdur. O, ayağını və ya əlini itirməsə də, cəbhədə olduğu zaman dəfələrlə soyuğa, qara-yağışa düşmüşdür. Bu səbəbdən də onun uşağı olmur. Sonsuzluğu onu mənən əzir. Sağlamlığını itirməsi də bir yandan. İçindəki ağrılar ürəyini gəmirir. Nəticədə Mehman ürək infarktına məruz qalır. "Savab" hekayəsində isə " (Bax.Mayis Səlim. "Həyat yolum"(şeirlər və hekayələr). Səh.337-346) sadə və günahsız adamların xeyir-dualarının Tanrı qatında keçərli olduğuna inam əks olunur. Rayonun hörmətli idarə rəhbərlərindən biri olan Tahir Kərimli qəfildən işçilərinin gözü qabağında yıxılıb ölür. Onun yerinə keçmək istəyən müavini Kazım nüfuzlu Şərif müəllimə ağız açır və müsbət cavab alır. Bununla belə, ailəsi bir parça çörəyə möhtac olan Samirə müdirəvəzi olduğu halda deyil, "müdir olacağı halda" işdə saxlayacağını elan edir. Samir də, anası da Kazımın müdir olması üçün gecə-gündüz Tanrıya dua edirlər. Müəllif həm də bu dualar sayəsində Kazımın tezliklə arzusuna çatdığını göstərir. Yaxşılığın yaxşılığını göstərən müəllif "Balıq bilməsə də, Xalıq bilər" düşüncəsinin reallıq olduğuna işarə edir.

**Memuar xarakterli "Xatirə" (Bax.Mayis Səlim. "Həyat yolum"(şeirlər və hekayələr). Səh.347-352) hekayəsi ali məktəbə daxil olan kəndli balasının tələbə biletini alıb evə qayıtması və doğmaları tərəfindən necə qarşılanması, nəhayət, Bakıya necə yola salınması səhnələrini əks etdirir. Ali məktəb tələbəsinə qardaş-bacılarının, o cümlədən kənd camaatının qəhrəman kimi baxmaları, valideynlərinin necə bir qürur hissi keçirmələri realistcəsinə təsvir edilir. Onu artıq tələbə kimi Bakıya yola salanların arasında iti Sarının da olması Mayis Səlimin yazıçı təxəyyülünün yetkinliyindən xəbər verir. Nə az, nə çox-kitaba on iki hekayə daxil edilmişdir. Bunların hər biri ayrıayrılıqda insan yaşantılarına tutulan işıq kimidir. Məlum məsələdir ki, kitab qalınlığı ilə deyil, qalanlığı ilə müəllifinə ömür bəxş edir.Mayis Səlim ömrü övladının, doğmalarının, sevənlərinin ömründə davamı etməkdədir. Ömrü ömürlərə qovuşmuş Mayis Səlim ömrünün əbədiyyəti isə kitabları ilə bağlıdır. İrəvan məktəbi-islamiyyəsinin türk dili müəllimi Məmmədvəli Qəmərlinin tərtib etdiyi və 1899-cu ildə İrəvanın Edelson mətbəəsində çap etdirdiyi "Atalar sözü" kitabına yazdığı ön sözdəki bir fikirlə (Bax. Məmmədvəli Qəmərli. Atalar sözü. Bakı, "Səda", 2003. Səh.12-13) sözlərimi tamamlamaq istəyirəm: Dünyada hər bir kəs üçün sözdən böyük yadigar və ya vərəsə yoxdur".**